**PAŞA YAQUB**

# *ONURĞA ORQANİZMİN ANTENİDİR*

**Bakı - 2022**

PAŞA YAQUB
***ONURĞA ORQANİZMİN ANTENİDİR***
Bakı, "Zərdabi Nəşr" MMC, 2022, 40 səh.

Tanınmış həkim və elmi-lədun bilicisi Paşa Yaqub bir neçə özəl klinikada çalışır. Otuzdan çox kitabın, yüzlərlə məqalənin müəllifidir. Burada həkimin özünəməxsus, qeyri adi müalicə metodundan bəhs olunur.

© PAŞA YAQUB, 2022



# QABIRĞA ORQANİZMİN ANTENİDİR

Son vaxtlar insanlar arasında onurğa xəstəlikləri kəskin şəkildə artmışdır. Demək olar ki, hər ailədə azı bir nəfərin skalyoz, kipoz, fəqərələrarası diskin sürüşməsi, kirəcləşməsi, yırtıq və s onurğa xəstəliklərinin birindən əziyyət çəkməsi şübhəsizdir. Sual yaranır: niyə son dövrlər onurğa xəstəlikləri bu qədər artıb?

Araşdırmalarımız göstərir ki, onurğa orqanizmin anteni funksiyasını yerinə yetirir. Necə ki, televiziya, radio və s cihazlar onlara ötürülən dalğaları antenlər vasitəsi ilə qəbul edirlər, orqanizm də Kainatdan gələn enerji dalğalarını məhz onurğa vasitəsi ilə qəbul edir, oradan bədənə paylanır. Kainatdan həm mənfi, hm də müsbət enerji dalğaları gəlir. Son dövrlər insanlar günah işlərlə daha çox məşğul olduqlarından, biri-birlərinə həsəd, paxıllıq etdiklərindən, pis nəzərlə baxdıqlarından, onlardan daha çox neqativ enerji ayrılır və qarşılarındakı insana ötürülür (müsbət enerji günahsız, nəfissiz insanlardan ayrılır ki, bunların da sayı cəmiyyətdə çox azdır). Bu cür neqativ enerji axımını ilk qəbul edən üzv onurğa olduğundan, onda ilk növbədə ağrılar, sonra isə, disk sürüşməsi, kirəcləşmə, yırtıq və s yaranır.

Adətən, insanlar onurğadakı bu fəsadların mahiyyətinə varmayaraq, ağrıkəsicilərdən istifadə etməklə, yaxud, cərrahi müdaxilə ilə problemi ötüşdürməyə çalışırlar. Nəticədə onurğadakı neqativ enerji digər orqanlara keçir. Bu vaxt bəzi hallarda beldəki ağrılar dayanır, amma, digər orqanlarda yaranan xəstəliklər onurğadakından daha ciddi olur. Belə ki, bu mərhələdə insanda limfa şişləri, böyrək xəstəlikləri, poliplər, prostatın böyüməsi və s xəstəliklər müşahidə olunmağa başlayır.

Xərçəng xəstələri arasında apardığımız elmi-lədun araşdırmalar göstərir ki, bu xəstəlikdən əziyyət çəkənlərin böyük ək-

səriyyəti daha əvvəl onurğa (bel) ağrısından əziyyət çəkiblər.

Eləcə də qadınlar arasnda geniş yayılmış süd vəzi və analıq orqanlarının xəstəlikləri (kista, mastopatiya, miomatik düyünlər və s) də onurğa ağrılarından sonra yarandığı aydın olur ki, bu da neqativ enerjinin onurğadan sonra həmin orqanlara ötürülməsi səbəbindəndir.





Elmi-lədun araşdırmalarımız göstərir ki, bütün bunlardan əlavə, onurğaya daxil olan neqativ enerji həm də oradan keçən sinirləri sıxır, yaxud, zədələyir. Nəticədə insanda əsəb, sinir ağrıları və yaxud, miqren yaranır. Bu ağrıların tibbi müalicəyə tabe olmaması da onların neqativ enerjidən yaranması barədə söylədiklərimizi bir daha təsdiqləyir.

Onurğada toplanmış neqativ enerji həmçinin, insanda yorğunluq, halsızlıq, depressiya, yuxu pozğunluğu, panikatak, nevrozların, qıç ağrılarının və s xəstəliklərin yaranmasına səbəb olur.

Tibb elmində neqativ enerjiyə təsir edən vasitə kəşf olunmasa da, bizim yaratdığımız Elmi-lədun müalicə üsulu ilə cəmi 21 günə orqanizmi neqativ enerjidən təmizləmək və ağrıları nəzarət altına almaq mümkündür.



## İRANA GEDƏN XƏSTƏLƏRİN "SAĞALMASININ" SİRLƏRİ

Son dövrlərdə Aərbaycanda sağala bilməyən xəstələrin ən çox üz tutduqları ölkə İrandır. Əslində imkanlı adamlar Avropaya və İsrailə, orta təbəqə Türkiyə və Rusiyaya, kasıb təbəqə isə İran klinikalarına üz tuturlar. Azərbaycan əhalisinin çox hissəsi kasıb olduğundan, müalicə üçün İrana üz tutanların sayı da digər ölkələrə nisbətən daha çoxdur. Haqq üçün danışsaq, İrandan gələnlərin çox hissəsi qayıtdıqda sevincək halda sağaldıqlarını deyirlər. Onlar öz sevinclərini həm qohum-əqraba ilə, həm də sosial şəbəkələrdə gen-bol bölüşdüklərindən, əhali arasında belə bir fikir formalaşıb ki, İrana müalicəyə gedən xəstələr hamısı sağalıb gəlirlər (digər ölkələrə üz tutanlar yüksək və orta təbəqənin adamları olduğundan, onlar sağalmaları barədə xəbəri heç vaxt sosial şəbəkələrdə paylaşmırlar. Bu səbəbdən də Azərbaycanda digər ölkələrin klinikaları İran klinikaları qədər məşhur deyil).

Bütün bunlar işin görünən tərəfidir. Gəlin bir qədər də məsələnin görünməyən tərəflərinə nəzər salaq. Məsələnin mahiyyətinə dərindən nəzər salmaq istəyirsinizsə, İrandan sağalaraq gələn, sevinci yerə-göyə sığmayan, bir çox hallarda qurban kəsib paylayan N sayda qohum və tanışlarınızı bir neçə aydan sonra təkrar ziyarət edin (yaxud, telofon açın) və səhhətləri ilə maraqlanın. Görəcəksiniz ki, bir neçə aydan sonra tanışınızın ya həmin sağalmış orqanı, ya da digər bir orqanı kəskin şəkildə xəstədir və yenidən İrana getmək üçün pul axtarır. Bu yaxında adını çəkmək istəmədiyim tanınmış jurnalistin sosial şəbəkədə paylaşdığı statusu mən də şərh yazaraq paylaşdım. Adam yazır ki, səhhətim kəskin pisləşib, yenidən İrandakı həkimi-

min qəbuluna getmək istəyirəm, icazə verilmir... Bu statusu paylaşarkən yazdığım şərh beləydi ki, bu dostum cəmi üç ay qabaq həmin bu profildən həmin iranlı həkimini ağız dolusu tərifləyirdi ki, məni və həyat yoldaşımı çox gözəl əməliyyat etdi, qayğıkeş, savadlı.... həkimdir. Bəs necə oldu ki, üç aydan sonra jurnalistin vəziyyəti kəskin pisləşdi və yenidən həmin klinikaya, həmin həkimə can atır? Belə faktlar sosial şəbəkələrdə yüz minlərlədir. Sadəcə insanların İrana müalicəyə getmələri, sağalıb gəlmələri barədə statusları yadda saxlayıb, 3-4 aydan sonra bir də onun profilinə nəzər salmaq kifayətdir ki, İranda necə "sağaldığını" biləsən. Həkimlik təcrübəmdə hər gün onlarla belə pasiyentlə qarşılaşıram ki, 3-4 ay qabaq İran klinikasından tam sağalaraq qayıdıbdır.

Oxucuda sual yaranacaq ki, bəs bu necə olur ki, insan sağalaraq qayıdır, amma, bir neçə aydan sonra əvvəlkindən daha kəskin xəstələnir?

Yuxarıda qeyd etdik ki, bütün xəstəliklərin səbəbi (fundamenti) neqativ enerjidir. Bu enerji orqanizmə onurğa vasitəsi ilə daxil olur. Ona görə də onurğanı orqanizmin anteni adlandırdıq. Orqanizmə bu yolla neqativ enerji daxil olduqda, bu enrji ilk növbədə onurğada fəsad yaradır, daha sonra isə, hansısa bir orqanın üzərində yığılaraq, onun funksiyasını pozur, beləliklə, xəstəlik yaranır... Xəstə insan müalicə üçün (və s məqsədlə) ölkəni tərk edəndə yaşadığı yerdən bir neçə min km uzaqlaşır. Beləliklə, kəmiyyət (məsafə) dəyişikliyi baş verir. Artıq qabırğa (anten) əvvəlki dalğaları tuta bilmir (televiziyalar uzaq məsafədən tuta bilmədiyi kimi). Beləliklə də KEYFİYYƏT dəyişikliyi baş verir. Bu, Kainatın idarəolunma qanunudur: kəmiyyət dəyişikliyi mütləq keyfiyyət dəyişikliyinə səbəb olmalıdır! (Əvvəlki kitablarımda həm Quranda, həm də Mendeleyev cədvəlində kəmiyyət dəyişikliyinin keyfiyyət



dəyişikliyinə keçməsinin bənzər olduğunu müqayisəli şəkildə göstərmişdim.)

Kainatın bu qanunu İrana müalicəyə gedən xəstələrdə də özünü biruzə verir. Belə ki, uzaq msafəyə getdiyindən, onurğa artıq ona ötürülən neqativ enerjini qəbul edə bilmir. Beləliklə, əlaqə kəsilir. Bir qədər orada qalıb, müalicə aldıqda asanlıqla sağalır. Ancaq yaşadığı yerə qayıdan kimi, yenidən həmin enerji dalğalarının təsirinə məruz qalır və əvvəlki proses (neqativ enerjinin hansısa orqanın üzərinə toplanması) təkrar baş verir. Nəticədə bir neçə aydan sonra həmin şəxs əvvəlkindən daha kəskin vəziyyətlə üzləşir. Əslində digər ölkələrə üz tutan azsaylı yuxarı təbəqənin nümayəndələrində də belə olur. Onlar da sağalıb qayıdandan bir müddət sonra başqa problemlə üzləşirlər. Sizə bir sirri də açım ki, müalicə üçün xaricə üz tutan xəstələr orada heç həkimə getməyib, sadəcə 21 gün ərzində orada yaşasalar, bu müddətdə görəcəklər ki, ağrıları keçdi və özlərini çox sağlam və gümrah hiss edirlər. Amma, onlar evlərinə qayıdandan sonra yenə də eyni problemi yaşayacaqlar. Bu cür halı gündəlik həyatınızda sizin hər biriniz yaşayırsınız, ancaq mahiyyətinə varmırsınız. Belə ki, yaşadığınız şəhərdən, yaxud kənddən çıxıb, uzaq bir bölgədə olan qohumunuzun evinə qonaq gedəndə görürsünüz ki, evinizdə olan ağrılar (baş, bel və s) burada qaldığınız müddətdə baş vermir. Evinizə qayıdanda həmin ağrıların təkrar baş verdiyini görürsünüz. Sanatoriyaya, yaxud, başqa yerə istirahətə gedən adamlar da bu halın şahidi olurlar, orada ağrıları olmur. Çoxunuz bunu havayla, iqlimlə əlaqələndirirsiniz. Əslində isə, bu, kəmiyyət dəyişikliyinin keyfiyyət dəyişikliyinə səbəb olmasındandır. Yəni, evinizdə sizə təsir edən neqativ dalğaların uzaqda həmin formada təsir edə bilməməsi səbəbindəndir.

Son dövrlər dünyanın bir çox ölkələrinin vətəndaşlarına

online seanslar verirəm. Həmçinin, xarici ölkələrdə yaşayan azərbaycanlılar xəstələndikdə çox vaxtı mənə müraciət edirlər. Onları müayinə edərkən soruşuram ki, əvvəllər sizdə filan, filan hallar (hansı ki, həmin hallar insana neqativ enerji yüklənməsinin əlamətləridir) baş veribmi? Cavab verirlər ki, bəli, Azərbaycanda olanda belə hallar olurdu, bu ölkəyə gələndən sonra onlar yoxa çıxdı. Soruşuram ki, bunlar necə yoxa çıxdı, müalicə aldınmı? Deyir yox, sadəcə öz-özündən yoxa çıxdı, soruşursunuz, indi yadıma düşür ki, bir vaxtlar (Vətəndə) məndə belə hallar var idi...

Bəli, əziz oxucu, bütün bunlar kəmiyyət (məsafə, paralellər, meredianlar) dəyişikliyi səbəbindən enerji dalğalarında baş verən keyfiyyət dəyişikliyinə görədir. Amma, elə bilməyin ki, xaricə gedən adamlar bu neqativ enerjinin dalğalarından birdəfəlik qurtula bilirlər. Əsla yox! Onların problemləri sadəcə keyfiyyət cəhətdən başqa bir mərhələyə keçir. Yəni, burada ağrıyan orqanları daha ağrımır. Orada başqa orqan ağrımağa başlayır. Yaxud, insan başqa bir (maddi, mənəvi, şəxsi həyat, ailə münaqişəsi...) problemi yaşamağa başlayır. Araşdıranda görürük ki, məkanı dəyişdikdən sonra neqativ enerji insana başqa bir formada təsir etməyə (mane olmağa) başlayır... Bütün bu sirləri ona görə izah etdim ki, insanlar xəstələnərkən İrana-Turana gedib, Dünyanı fırlanmaqdansa, ətək-ətək pullar xərcləməkdən, ağır cərrahi əməliyyatlara girməkdənsə, elə öz vətənində *neqativ enerjidən təmizlənsə* və ildə bir-iki dəfə havasını, suyunu dəyişsə həmin insanda heç vaxt xəstəlik olmaz və uzunömürlü olar.

P.S. WF-dən 10 metr aralananda telefonlarımız internet dalğalarını qəbul etməkdə çətinlik çəkdiyi kimi, yaşadığı yerdən aralandıqda insanın onurğasında da eyni proses baş verir.



## ƏSƏB XƏSTƏLİYİNİN SİRLƏRİ

Neçə illərdir ki, ruhi-əsəb xəstələri ilə (o cümlədən autizm sindromlu, əqli geriliyi olan uşaqlarla) işləyirəm. Təcrübəmdən bilirəm ki, bu cür xəstəliklərin yaranma səbəbi ilk növbədə xəstənin anasıdır (sizə qəribə gəlsə də belədir!). Yəni, ana hələ gənc olanda, (bu əsəb xəstəsini dünyaya gətirməzdən qabaq, ola bilsin qız vaxtı) ona neqativ enerji ötürülür. Bu enerji ilk vaxtlar onu gecələr diksindirir, qorxu, həyəcan, panika... yaradır. Baş, çiyin, onurğa və s ağrıları olur. Süd vəzilərində və analıq orqanlarında müxtəlif problemlərdən (kistalar, mastapatiya, miomatik düyünlər...) biri, yaxud, bir neçəsi yarana bilir. Qorxulu yuxular (ilanlar, vəhşi heyvanlar...) görür. Yuxuda boğulmalar, qarabasmalar, yatarkən üstünə ağırlıq çökdüyünü hiss edir, depressiv hallar keçirir. Lakin, bunların fərqinə varmır. Nəhayət, bütün bu neqativ əlamətlərlə birlikdə, hamiləliyi səbəbsiz ağlamalarla, əsəbi halda başa vurur və dünyaya neqativ enerjiyə yoluxmuş uşaq gətirir. Uşaq əsəbi böyüyür, çox hallarda skalyozu və s problemləri olur. Bu cür gərgin keçən hamiləlikdə çox hallarda autizm sindromlu, yaxud, əqli geriliyi olan uşaqlar doğulur. Bunlar olmadıqda, həmin uşaq yetkinlik yaşına çatan kimi bütün problemləri çox yüksək qabarır, əsəblərini cilovlaya bilmir.... Ana hələ də başa düşmür ki, günahkar onun viruslu (neqativ enerji dolmuş) bətnidir; doğmaqda davam edir. Bu cür anaların ən çox birinci uşağında əsəb problemi olur. Və həmin birinci uşaq illərlə psixatr müalicəsi alsa da faydası olmur...

...Birinci uşağı doğandan sonra ana bir az rahatlanır. Çünki, bədənindəki neqativ enerjinin çox hissəsini birinci uşaqla bərabər atır – yəni, ilk övlada ötürür. Sonrakı hamiləliklərində

səbəbsiz ağlamır, az əsəbləşir.... Doğulan sonrakı uşaqlarda da problem az olur. Lakin, birinci uşaq ya autizmli olur, ya da bir az böyüyəndən sonra başlayır *anasını ağlatmağa...* Yəni ana hamiləlik dövründəki kimi səbəbsiz ağlamasa da, birinci doğduğu uşağa baxıb ağlayır. Yəni, uağın o qədər böyük dərdləri olur ki, ana ona baxıb daim içində ağlayır. Amma, nə edəcəyini bilmir. Tibb elmindən, kimyəvi dərmanlardan başqa heç bir vasitə haqqında doğru düzgün məlumatı yoxdur; falçılara da gedəndə dəfələrlə aldadıblar.... Artıq heç nəyə inanmır. Bir qədər psixotrop dərmanlardan yedizdirir... Dərmanların təsirindən uşaq daha da süstləşir, sevgi hissi olmur, key kimi gəzir, ya da bir küncdə oturur, bir çox hallarda cinsin tanımır. Dərmanını kəsəndə əsəbləşib, valideynlərini döyür.... Böyüdükcə güclənir və idarəolunmaz vəziyyətə gəlir...

Nəhayət, bizim haqqımızda eşidib, qəbulumuza gəlirlər. Öncə qeyd edim ki, bu cür əsəb (yaxud autizm sindromlu) xəstələri ilk seanslarda bizi yaxın buraxmaq istəmirlər, mümkün qədər müqavimət göstərməyə çalışırlar. Bunun səbəbi odur ki, onlarda neqativ enerji əvvəl çox güclü olur. Biz ona müsbət enerjini (Efir enerjisini) ötürəndə ondakı mənfi enerji ilə toqquşur. Xəstə iki əks enerjinin arasında qalıb sıxılır. Bu hal onu əsəbləşdirir. Ancaq bu hal (sıxılma) hər seansda bir qədər azalır. Getdikcə onun bədənində neqativ enerji azaldıqca (kiçildikcə) müqavimət və sıxılma da azalır. Beləliklə, üç seansdan sonra demək olar ki, xəstə ciddi müqavimət göstərmir. Ona görə də valideynlər bir qədər səbirli olub, bizə vaxt tanımalıdırlar. Xəstənin yox, həkimin sözünü əsas götürüb, məsləhətlərimizə qulaq asmalıdırlar. Belə etsələr, ruhi-əsəb dispanserlərində nə qədər xəstə varsa, hamısını az vaxtda sağaltmaq mümkündür. Amma, hanı elə ağıllı, dünya görüşü olan valideyn? Ağıllı və dərrakəli valideynin uşağı əslində heç ora



düşməzdi; əzəldən (qız vaxtı, yaxud hamiləlik dövründə) çarəsini tapa bilərdi. Dünya görüşü yetərincə olan valideyn bilərdi ki, ruhi xəstəliyin tibbə aidiyyəti yoxdur. İnanmırsınızsa əsəb dispanserindən çıxanlarla maraqlanın, görün son əlli, yüz ildə oradan çıxanlardan bir iş-güc sahibi olanlar, ailə dolandıranlar varmı?

Belə xəstə uşaqların doğulmasına səbəb cəmiyyətin (xüsusilə də qadınların) enerji sahəsində maariflənməməsidir. Maariflənsəydilər niyə səbəbsiz ağladıqlarının, qarabasmalarının və s yuxarıda sadaladığım halların nəyin əlamətləri olduğunu, necə aradan qaldırmaq lazım olduğunu bilərdilər. Onda uşaqları da əsəbi doğulmazdı və indi onlara baxıb ağlamazdılar... (Bu broşuru yazıb paylamaqda məqsədimiz insanları bu sahədə maarifləndirməkdir).

***Son dövrlər əsəbi və autizm sindromlu doğulanların sayı niyə artır?***

XX əsrin 80-ci illərindən sonra autizm sindromu ilə (yaxud əsəbi) doğulan uşaqların sayında kəskin artım müşahidə edilməkdədir. Təxmini hesablamalara görə hazırda doğulan hər min körpədən 55-i autizm sindromundan əziyyət çəkir (əsəbi və əqli geriliklə doğulan uaqların isə, sayı-hesabı yoxdur). Sual yaranır: nə baş verdi ki, 80-ci illərdən sonra xəstə və qüsurlu doğulan uşaqların sayı bu bu qədər artdı?

Elmi-lədun araşdırmalarımıza görə keçən əsrin 80-ci illərindən sonra şeytani dövr başladı. Həimn vaxtdan cəmiyyətdə "vergi verilən" adamların sayı həddən artıq çoxalmağa başladı. Onların böyük əksəriyyəti falçı və cadugərlər idi. İnsanlar bunun fərqinə varmadan (qanmazcasına) onların qapısına axışmağa başladılar. Hətta, onların qəbuluna düşmək üçün günlərlə qapısında növbə gözləyirdilər. İnsanlar baxmadılar ki, Allah-təala həmin sehirbazlar (falçı və cadugərlər) haqda

Quranda belə buyurur:

*(Onlar) Süleymanın səltənətinə dair şeytanların oxuduqlarına (sehr kitablarına) uydular. Süleyman bu kitablara uymadığı (pis məqsədlə istifadə etmədiyi) üçün kafir olmadı, lakin şeytanlar bildikləri sehri və Babildə Harut və Marut adlı iki mələyə nazil olanları xalqa öyrədərək kafir oldular. Halbuki o iki mələk: "Biz Allah tərəfindən göndərilmiş imtahanıq (sınağıq), sən gəl kafir olma!" – deməmiş heç kəsə sehr öyrətmirdilər.*

*Bununla belə cadugərlər yenə də ər-arvad arasına nifaq salan işləri onlardan öyrənirdilər. Lakin onlar Allahın izni olmadan heç kəsə zərər verə bilməzlər. Onlar (cadugərlər) ancaq özlərinə faydası olmayan, zərər verən şeyləri öyrənirdilər. Həqiqətən, onlar belə şeyləri satın alanların (Allahın kitabını şeytan əməlləri ilə mübadilə edənlərin) axirətdə payı olmadığını yaxşı bilirlər. Kaş ki, onlar özlərini nə qədər yaramaz bir şeyə satdıqlarını biləydilər!"* Quran, 2:102. Ayədən göründüyü kimi, Süleymanda belə bir kitab olmuş və cinləri həmin kitabda yazılmış dualarla buyurmuşdur. Lakin, Süleyman Peyğəmbər dünyasını dəyişdikdən sonra həmin kitab sonrakı nəsillərin əlinə keçmiş, onlar da kitabda yazılanlardan ər-arvad (yaxud, qohumlar, dostlar...) arasına nifaq salmaq və digər fitnə-fəsad məqsədlər üçün istifadə etməkdədirlər... Təəssüf ki, bu gün həmin kitab bir çox mollaların və cadugərlərin stolüstü kitabıdır. Bunun nəticəsidir ki, bu gün cəmiyyətimizdə boşanmaların və psixi xəstəliklərin (autizm, əqli gerilik və s), ziyanlı vərdişlərin sayı görünməmiş həddə çatmışdır. Bəzi evlərdə əşyaların tez-tez sirli şəkildə yoxa çıxması (az vaxtdan sonra həmin əşyalar elə yerdə tapılır ki, ora bəlkə min dəfə baxılmışdı), kəndlərdə kütləvi hal alan sirli yanğınlar da bunun əlamətlərindəndir.



Sehirin (cadunun) digər əlamətləri insanda baş, boyun ağrıları, immunitetin azalması (nəticədə cürbə-cür xəstəliklərin baş qaldırması), əsəbilik, yuxusuzluq, qorxulu yuxular görmə, qarabasma, yuxuda diksinmə, depressiya, qapanma və s. kimi özünü biruzə verir. Bu cür hallarda insan özünə qapanır, həyat eşqi, məhəbbət hissi ölür, qəlbində ətrafdakılara qarşı nifrət hissi baş qaldırır. Beləliklə, sevdiklərindən uzaqlaşmağa çalışır (ağır hallarda intihara meyilli olur).

Virus kompyuteri necə dondurursa, fayl və proqramları necə silirsə, neqativ enerjinin təsiri də insanın həyatını (fəaliyyətini) elə dondurur və qəlbindəki məhəbbət hissini silir (əvəzində nifrət, şübhə, panika... kimi ziyanlı "fayl"lar yazılır).

Təssüf ki, bu gün cəmiyyətimizin böyük əksəriyyəti, blkədə 70 faizdən çoxu çadugərlərin ya birbaşa, ya da dolayısıyla (valideynlərdən keçməklə) ötürdükləri neqativ enerjinin təsirinə məruz qalıblar və istirab içində (bəzilərinin ailəsi dağıllıb, bəziləri ağır xəstəliyə düçar olub, bəzilərinin ruzisi kəsilib....) qıvrılırlar. Lakin, düşdükləri vəziyyəti düzgün qiymətləndirə (anlaya) bilmirlər. Çoxusu bunu Allahdan görür və oturub gözləyirlər. Əksəriyyəti heç çıxış yolu da axtarmırlar (onların əvəzində yaxınları narahat olurlar). Çıxış yolu axtaran da çox vaxtı yenə də falçı və cadugərlərə üz tuturlar. Halbuki, onu bu vəziyyətə salan elə həmin cadugərlərdir. Qılınc öz qının kəsmədiyi kimi, onların etdiyi sehr əməlləri də insanı vəziyyətdən çıxara bilməz. Onlara üz tutmaqla insanlar yüklərinin üzərinə öz əlləriylə bir yük də qoyub, özlərini daha da ağırlaşdırırlar. Falçıların verdikləri düyünlənmiş sap və s əşyalar evə gətirilən kimi, evdəki bakirə qız uşaqlarının və hamilə qadınların halı pisləşir. Çünki, cadugərlər həmin sap və əşyalara neqativ enerji yükləyirlər. Uran elementi qoyulmuş otaq necə radiyasiyaya məruz qalarsa və oradakı insanları necə xəstələndirərsə, falçı

və cadugərlərin də verdiyi əşyalar ailəyə neqativ enerji buraxır və sakinləri xəstələndirir, uğursuzluğa düçar edir... İlk növbədə qızlara və hamilə gəlinlərə təsir edir. Qızlarda onurğa və digər orqanlarda (əsasən süd vəzlərində) ağrılar baş qaldırır, menstu-rasiya pozulur, bir müddətdən sonra analıq orqanlarında kista, polikistoz, miomatik düyünlər... yaranır.

Hamilələrdə isə, bu enerji əsəbə, stresə, depressiyaya səbəb olur ki, bu da bətndəki uşağın gələcəkdə əsəbi olmasına, əqli geriliyinə, autizmə və s xəstəliklərinə səbəb olur.

Analar övladlarının bu cür xəstə doğulmasını istəmirlərsə, falçı və cadugərlərdən uzaq durmalıdırlar. Kimdənsə onlara neqativ enerji gəlibsə (yuxarıdakı əlamətləri varsa), tez bir zamanda bu enerjidən təmizlənməlidirlər ki, həm özləri, həm də övladları sağlam olsunlar.

Yeri gəlmişkən, bu mövzuda adının çəkilməsini istəməyən xanım pasiyentimiz sosial şəbəkədə yazıb, başına gələnləri belə anladır:

- Mən uşaqlıqdan rayonda olanda həmişə nədənsə qorxmuşam, gözümə balaca şeylər görünürdü. Evdə tək qalmaqdan qorxurdum. Ən əsası qorxulu yuxular məni rahat buraxmırdı. 10 yaşımdan bəri cox pis yuxular görürəm. Həmişə də gördüyüm yuxu çin çıxır. Yeniyetmə çagımda qeyri-adi məxluqlar hər gecə yuxuda məndən əl cəkmirdilər. Həmcinin, rəhmətlik atam ailədə nə olacaqsa qabaqcadan yuxuda mənə deyirdi; nə sozu varsa hamsını deyrrdi mənə. Bir şeyi də deyim ki, mən bir-iki dəfə atam ölən otaqda olanda axşam vaxtı çox qorxdum – digər otaqlardan ayaq səsləri gəlir, skaflar aşılıb baglanırdı. Sanki üzü mən olan otağa tərəf kimsə tez-tez gəlirdi...

Oturduğum yerdə diksinirdim, sanki kimsə əl vururdu mənə. Göydə yazılar, göy üzündə qəribəliklər falan görürdüm. O



vaxtlardan başımda həmişə ağrılar olur...

Ailə qurandan sonra daha da ağirlaşdım... Ürəyim gedirdi, əsəb keçirən kimi intihar halına gəlirdim heç nədən, özümdən asılı olmayaraq. Özümü öldürmək istəyirdim. Məni aparmadIqları yer qalmadı. Amma heç kim mənə baxıb heç nə demirdi. Sadəcə bir sual verirdilər: Namaz qılırsan? Quran oxuyursan? Yaxşı olacaqsan deyib, kitabı baglayırdılar...

Yuxuda məni qara paltarlı məxluqlar elə qovurdular ki, elə bil bir saniyə dayansam məni öldörəcəklər. O yuxu hər yadıma düşəndə pis oluram, vahimə basır məni. Evlərin üstündə və altında qovurdular məni yuxuda; səhərə kimi mən qovulurdum. Ən sonda məni qova-qova qara paltarlılar nəhayət tutdular. Onların böyüyü mənim ağzımı əlləri ilə acid; ağzından agzıma nəsə atdı və mənə dedi ki, *"sən artıq bizdən biri oldun!"* Yuxuda olub bunlar hamısı.

Həyat yoldaşım evə gələndə məni tuturdular, deyirdilər ki, *"ona yaxın getsən evdəkilərdən hansısa biri öləcək; ölməklərini istəmirsənsə onları özündən uzaq et, onlardan uzaq ol!"* Ona görə də mən qorxumdan yoldaşıma yaxın getmirdim, onu da özümə yaxın buraxmırdım. Amma, bunun səbəbini ona deyə bilmirdim. Çünki, həmin qorxulu varlıqları yoldaşım görmürdü, ancaq mən görürdüm. Həmçinin, evdə nə itsə yuxuda mənə yeri deyilirdi. Nə olacqsa onun işarəsini görürdüm. Amma, axır vaxtlar balaca-balaca qəribə məxluqlar görürdüm, elə əsəbi edirdilər məni ki, yuxudan qışqıraraq, qalxırdım. Ən çox da evin qapısı məni incidirdi. Mən səhərədək qapını bağlayırdım, kimsə açırdı; mən baglayiram, kimsə acırdı... Açmaqda məqsədləri evdə kmisə öldürmək idi.

Bir dəfə mən yuxuda "Fələq", "Nas" surələrini oxudum; yuxuda qışqıra-qısqıra oxuduqca evdə tufan qopur, pəncərələr

qırılır, qapılar titrəyirdi. Axırda balaca boylu, hörüklü bir qadın ora-bura qaçır, ən sonda mən oxuduqca o, qara tüstüyə dönüb yox olur, sonra ev sakitləşirdi...

Qeyd edim ki, mənim başımda ağrılar mənimlə daim yaşayir; yəni mən normal, ağrısız baş necə olur, bilmirəm. Artıq baş agrsı həmişə, hər an mənimlədir. Mən namaza başladım, Quranı oxuyuram, amma rahat ola bilmirəm, namaz qılanda çox rahat oluram, agrilarım gedir. Amma hər namaz vaxtı evdə elə şeylər olur ki, onda görürəm artıq 2 saat keçib namazın vaxtından...

Bir gün mənim İnstaqram səhifəmə heç üzünü görmədiyim, tanimadığım bir ekstrasens maraqlı bir şey yazdı: "Sənin boynunda və dilində ruhlar oturub, dilin acıdır, hamını özündən uzaq etmisən, sənə Şeytan tərəfindən vergi verilir, götürmə haa; yoxsa pis şeylər olacaq. Boynunun, başının agrısı onun nəticəsidir. Evində divan var, onu at bayira". Deyirəm axı niyə ruh var? O, həm də yazdı ki, "o qüvvə kimisə aparacaq…".

Bir də mənim boynumun dalı baş hissəyə yaxın çox ağrıyırdı, 16 il idi ağrıyırdı. Elə olurdu ki, agrı gələndə ölü kimi olurdum.

Yuxuda ilanlar da məni incidirdi. Çox ağır-ağır yuxular olurdu. İnanın. çox yolurdum, çox. Mən kimə desəm də mənə elə-belə baxırdılar, inanmırdılar, nəsə gülüb kecirdilər, amma görürdüm ki, yox, mən günü-gündən dala gedirəm. İnsanlardan artıq zəhləm gedir, səbrim yoxdu heç kəslə danışım.

Gündüz olanda iş görə bilmirdim; sanki gün, hava pis təsir edirdi mənə. Axşam olnadan sonra rahatlaşırdım... Danışdıqca çoxdur sözlərim, başıma gələn hadisələr… Amma, ən əsaslarını bura yazdım. Boğazımda limfalar şişmişdi, başımdakı ağrılar kəskinləşmişdi; halsızlaşırdım, saçlarım tökülrdü, gözümün biri böyümüşdü. Namaz qılanda nəfəsim kəsilir, elə bil namazı qaça-qaça qılırdım. İki övladıma görə çox narahat idim… Bir gecə yuxuda bir kişi gördüm, ya seyid idi, ya da vergili bir insan idi, başı bir az ağarmışdı. Həm də həkim idi. O məni qəbul edib, çox sözlər deyirdi…". Bu yuxunu görəndən sonra mən sosial şəbəkədə belə mövzularda paylaşım edən Vüqar adlı bir adama rast gəldim. Ona dərdimi anladıb, bir məsləhət verməsini istədim. O mənə **Paşa Yaqub** adlı həkimin nömrəsini verdi, dedi ona müraciət elə, bəlkə kömək edə. Mən ona yazdım, dedi klinikaya gəl, kömək edərəm. Dedim mənim pulum yoxdur, gələ bilmirəm, iki körpəmə xatir mənə kömək elə. O da sağ olsun ki, xahişimi nəzərə alıb, Masazıra, evimizə gəldi. Mən onu görən kimi, tanıdım ki, həmin yuxuda gördüyüm (seyyid) həkimdir…

Paşa doctor üç dəfə bizə gəlib məni seans etdi. Şükürlər olsun Allaha, həmin seanslardan sonra daha agrılarım yoxdur. Axırıncı seansda ondakı İlahinin verdiyi enerjini gordüm. O gündən o agrilar, o qorxulu, vahiməli yuxular yoxdur qətiyyən. Ele bil olmayib, möcözədir. Düzdür, etiraf edirəm, əvvəl inanmadım. Bu dözülməz agrı necə gedə bilər axı cəmi üç seansa? Neçə illərdir heç bir həkim dəqiq diaqnoz qoya bilmirdi, nə də mualicə ola bilmirdim. Ama, Allah Paşa doktordan razı olsun, min kərə. Agrılarım elə bil olmayib. Siz cənnətinizi qazanmısınız sanki. Dualarım sizə sonsuzdur Paşa doktor!

Onu da qeyd edim ki, Sizin seansdan bir müddət keçəndən sonra, həkimə getdim, diaqnostik aparatlardan keçdim, məndəki fibroz, kistoz, mastopatiya yox olmuşdu. Bildim ki, sizin seanslardan sonra əriyibmiş onlar. Çünki, mən başqa müalicə almamışdım onlara görə. Başa düşdüm ki, onları da Sizin seanslar əridib.

İmza: anonim xanım, Masazır şəhəri.

**Bizim şərh:**

Əziz oxucu, sizdə sual yaranacaq ki, adının çəkilməsini istəməyən bu xanım niyə bu halları keçirib? Niyə illərdir ona müalicələrin təsiri olmayıb? Bütün bunların sirri nədir? Məsələyə aydınlıq gətirmək üçün bildirim ki, bu qadın güclü neqativ enerjinin (sehirin, cadunun) təsirindən bu hala düşmüşdü. Cəmi üç seansdan sonra sağalıb, övladlarına və ailəsinə qaynayıb-qarışdı.

Yuxuda onu qovanlar şər qüvvələr olublar. Onu da deyim ki, bütün cadugərlərin və falçıların həyatı bu cür (bu xanımdakı kimi) olur. Onlar hamısı bir qayda olaraq, bu cür şər ruhlar tərəfindən beləcə təqib olunur, qorxudulur, xəstələndirilir, ailəsi dağıdılır (qorxudan ailəsini yaxın buraxmayanda qarşı tərəf məcbur qalıb xoşbəxtliyini başqa yerdə axtarır), nəhayət özlərinə təslim edib ona el dilində desək "vergi" verirlər. Bundan sonra itən əşyaların yerini, və s şeyləri bildirməklə, ona xalqın inamını qazandırırlar. Quranda buyrulduğu kimi, şeytan sizi, sizin görmədiyiniz yerlərdən görür. Belədisə, deməli, bizim itən, oğurlanan şeylərimizi də görür və özünə (zor gücünə) təslim etdiyi cadugərə deyir. Yəni, onun vasitəsi ilə şeytan insanlara bəzi informasiyalar çatdırır. Belə şeylər mümkün olsa da, Allahın qadağan etdiyi şeylərdir. Çünki, bunların nəticəsində insanar arasında fitnə-fəsad törənir, düşmənçiliklər... yaranır.

Onların verdiyi informasiyalardan bir qismi doğru olsa da (inam yaratmaq üçün), çox hissəsi yalan olur ki, burada da məqsəd fitnə-fəsad törətməkdir. Falçıların verdiyi saplara, əşyalara neqativ enerji yüklənir ki, nəticədə onların qoyulduğu evdə həmişə xəstəlik və boş mübahisələr, dava-dalaşlar olur...

Son nəticədə cadugərin yanına gedən adamın həyatı da yavaş-yavaş yuxarıda yazan anonim xanımın həyatına bənzəyir – ağrılar, qorxu, vahimə, xəstə doğulan uşaqlar və s.



Həkimlik təcrübəmdə belə hallarla çox rastlaşıram. Cəmi üç-beş seansdan sonra bu cür hallar bir daha baş vermir.

Onu da qeyd etməyi vacib bilirəm ki, belə xəstələr öz xoşuna mənim qəbuluma gələ bilmirlər. Çünki, onları daim təqib edən varlıqlar (dediyi şər qüvvələr) buna imkan vermirlər; əzizlərini öldürəcəkləri ilə qorxudaraq mənim qəbuluma gəlməkdən çəkindirirlər. Başqa yerlərə, məsələn, cadugərə, falçıya, psixatra və s getməyə isə, onlara icazə verilir. Çünki, bu kimi yerlərdə onların içərisində olan elmi terminlə desək neqativ enerjiyə (loru dildə desək cin şeytana) heç bir zərər gəlmir. Mənim seanslarımda isə, ötürdüyüm güclü enerji dalğaları şər qüvvələri yandırdığına görə onlar icazə vermirlər ki, belə xəstə mənə tərəf gəlsin. Gərək onların ətrafında ağıllı adamlar olsun ki, düzgün qərar verə bilsinlər. Ailədən bizə müraciət olunanda bu işin öhdəsindən uğurla gəlirik. Pasiyent əvvəlcə bizi yaxın buraxmaq istəməsə də (yuxarıda qeyd etdiyim kimi, iki enerjinin arasında qalıb sıxılır), bu bizə elə də böyük problem yaratmır. Əgər valideyn istəyərsə, biz öz metodlarımızdan istifadə edib, xəstəyə yaxınlaşırıq və sağaldırıq. Yaxşı olar ki, bizim gələcəyimizi xəstə özü bilməsin, çünki, o, həmişə buna mane olur (yeri gəlsə uzaq məsafədən də xəstəni sağaltmaq mümkündür).

Sizdə sual yaranacaq ki, xəstə niyə sizə mane olur? Məgər o istəmir ki, bu cür ağrılardan, vahiməli həyatdan xilas olsun? Bəli, istəyir, ancaq, onun iradəsi öz əlində deyil, anonim xanımın təsvir etdiyi kimi, ətrafında daim vahiməli varlıqlar var və onlar xəstəyə əzələ nümayiş etdirirlər: Paşa doktora seansa icazə versən onda biz sənin övladını, əzizlərini öldürəcəyik (necə ki, ona həyat yoldaşının yaxınlaşmasına icazə vermirlər)…

Təəssüf ki, xəstənin yaxınları bunu dərk etmirlər (bu yazıları paylaşmaqda məqsədim onları maarifləndirməkdir). Xəstə

bizim qəbula ya əvvəldən, ya da ikinci dəfə gəlməkdən imtina edəndə yaxınları məsələnin mahiyyətini bilmədiklərindən, bir çox hallarda onun fikri ilə razılaşırlar. Beləliklə, xəstə ömür boyu sağala bilmir. Nəticədə ya cadugər olur, ya da ömrünü ruhi əsəb dispanserində başa vurur. Odur ki, çalışın belə xəstələrin fikri ilə yox, sağlam ağılla qərar verin.

***Sağlamlıq ana bətnindən başlayır***

Autizmlə doğulan körpələrin analarını test edərkən aydın görmək olur ki, onlar uşaq doğulmamışdan xeyli əvvəl, bəzən hətta, qız vaxtından neqativ  enerjinin təsirinə məruz qalırlar. Nəticədə onların orqanizmlərində sabitlik pozulur; diksinmə, qorxma, yersiz əsəbiləşmə, onurğa, mədə-bağırsaq, analıq orqanlarının xəstəlikləri...  baş verib. Təəssüf ki, insanlarımız bu əlamətləri ciddiyə almırlar və bu da bir neçə ildən sonra müxtəlif xəstəliklərin yaranması, eləcə də autizim sindiromlu uşaqların doğulması ilə nəticələnir.

Qadınlar (*qızlar*) daha həssas olduqlarından, neqativ təsirə kişilərdən daha çox məruz qalırlar. Amma, bu sahədə bilgisiz olduqlarından, vaxtında tədbir görüb, bu enerjidən azad ola bilmirlər. Nəhayət, hamiləlik dövründə onlar bu neqativ enerjini bətnlərindəki övladlarına ötürürlər. Beləliklə, beyin damarları qurumuş  - *autizm sindromlu* (yaxud, fiziki və əqli qüsurlu) uşaqlar dünyaya gətrirlər .  Tibb elmi bu cür problemləri  müalicəsiz hesab edir.

***Autizmin müalicəsi mümkündür***

Onu da qeyd edək ki, qorxu, əsəb, stress depressiya və s yuxarıdakı əlamətləri olan qadınlarda beyin damarları sıxılmağa və tədricən qurumağa başlayır ki, bu da beyində və digər orqanlarda funksional pozğunluqla nəticələnir.



Bu əlamətlər  hamiləlik dövründə baş verdikdə, bətndəki körpənin birbaşa beyin sisteminə təsir edir ki, nəticədə əqli qüsurları olan, beyni  inkşafdan qalan (*autizm sindromlu, yaxud əqli geriliyi olan*) uşaqlar doğulur...

Müasir psixologiya və tibb elmi neqativ enerjini nəzərə almadığından, onların tətbiq etdikləri müalicə metodları yalnız autizmli uşaqların özlərinə yönəlir. Bu səbəbdən də aparılan müalicələr bir çox hallarda nəticəsiz olur.

Bizim yaratdığımız Elmi-lədun (elmin alt qatı) müalicə metodu isə, fizikanın qanunlarına (Kainat fiziki qanunlarla idarə olunur) söykəndiyindən, birbaşa orqanizmdəki neqativ enerjiyə təsir edir və orqanizmi bu qara (ziyanlı) enerjidən təmizləyir.

Bizim müalicə metodumuz həmçinin, Elementlərin Dövrü Sistemində sıfır qrupunda, sıfır xanasında mövcud olmuş Nyutoniyum (Efir) elementinin sirlərinə söykənir. Hansı ki, Mendeleyevin ölümündən (1907) sonra bu element və onun mövcud olduğu sıfır qrupu cədvəldən çıxarıldı. Bu səbəbdən də müasir insanlar həmin element haqda kifayət qədər bilgiyə malik deyillər

Yeri gəlmişkən, qeyd edək ki, böyük Alim Nikola Tesla Nyutoniyum elementinin sirlərini mexanika sahəsinə tətbiq etməklə daimi işləyən mühərriklərin kəşfi, enerjinin naqilsiz ötürülməsi kimi, bir çox böyük kəşflərə imza atmışdır. Müasir dövrümüzdə İlahinin bəxş etdiyi elmlə (Elmi-lədunla) xeyli araşdırmalar apardıqdan sonra Nyutoniyum elementinin sirlərinə biz də vaqif olduq və bunu tibb elminə tətbiq etdik. Beləliklə də tibb elmində sağalan və sağalmaz hesab edilən bir çox xəstəlikləri bu sirlərlə uğurla müalicə edərək, böyük naiiyyətlərə imza atdıq.

Kimyəvi işarəsi “X” olan bu element cədvəlin yuxarı sol küncündə yerləşirdi. Bu maddəyə alimlər «Dünya efiri» də deyirdilər. Cəvəldə “Efir” “Hidrogen”dən əvvəl yazılmışdı; sıfır

